azərsu

“AZƏRSU” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

“Su həyat deməkdir, təmiz su sağlam həyat deməkdir”
İlham Əliyev

BÜLLETEN

№ 07 (23) • İyul 2014-cü il | www.azersu.az | Qaynar xətt - 955

Səudiyyə İnkişaf Fondu ilə kredit Sazişi imzalanmışdır

səh. 4-də

Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının yekunlarına həsr olunmuş iclası keçirilmişdir

səh. 3

Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğunun inşası yekunlaşır

səh. 5

Talış-Sabirabad-Saatlı magistral su kəmərinin tikintisi uğurla davam etdirilir

səh. 6

“Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 970-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 970-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinin 5-ci hissəsinə uyğun olaraq, su təsərrüfatı pasportunun nümunəsini, tərtibi və razılaşdırılması qaydasını üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.3. həmin Qanunun 12-ci maddəsinin “a” yarımbəndinə uyğun olaraq, istehlakçıların məişət (təsərrüfat)-içməli, istehsalat və digər məqsədlər üçün təmin edilməli olduqları suyun miqdarını müəyyən etsin;

1.4. beynəlxalq təcrübəni nəzərə almaqla, “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikası Qanununun yeni layihəsini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.7. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki, “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin “a” yarımbəndində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri,
27 iyun 2014-cü il.

“Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq qərara alır:

“Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №1, maddə 2; 2007, №5, maddə 436; 2008, №5, maddə 348; 2009, №10, maddə 768; 2010, №5, maddə 374; 2011, №4, maddə 263; 2012, №6, maddə 505) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddənin on ikinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on üçüncü abzas əlavə edilsin:

“su təsərrüfatı pasportu - əhali qrupuna aid olan istehlakçılar istisna olmaqla, su təchizatı və kanalizasiya obyektinin fəaliyyət, istismar və texniki xüsusiyyətlərindən asılı olaraq istifadə etdikləri (edəcəkləri) suyun, kanalizasiya sistemlərinə axıdılan (axıdılacaq) tullantı sularının normativ həcmini və tərkibindəki çirkləndirici maddələrin yol verilən qatılıq həddini müəyyənləşdirən texniki sənəddir.”.

2. 2-ci maddədə “əhalinin, müəssisə, idarə və təşkilatların” sözləri “istehlakçıların” sözü ilə əvəz edilsin.

3. 12-ci maddənin “a” yarımbəndində “lazımi miqdarda” sözləri çıxarılsın, “məqsədlər üçün” sözlərindən sonra “müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən miqdarda” sözləri əlavə edilsin.

4. 20-ci maddənin 1-ci hissəsində “lazımi” sözü “bu Qanunun 12-ci maddəsinin “a” yarımbəndinə uyğun olaraq müəyyən edilən” sözləri ilə əvəz edilsin.

5. 23-cü maddə üzrə:

5.1. 2-ci hissənin “a” yarımbəndinə “məlumatların” sözündən sonra “, habelə su təsərrüfatı pasportunun” sözləri əlavə edilsin;

5.2. 5-ci hissəyə “verilməsi” sözündən sonra “, habelə su təsərrüfatı pasportunun nümunəsi, tərtibi və razılaşdırılması” sözləri əlavə edilsin.

6. 24-cü maddənin 1-ci hissəsinin “c” yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda “d” yarımbəndi əlavə edilsin:

“d) su təsərrüfatı pasportunun tərtib edilməsini.”.

7. 37-ci maddənin 1-ci hissəsinin “a” yarımbəndinə “müraciət etməli” sözlərindən sonra “, habelə su təsərrüfatı pasportunu tərtib və təqdim etməli” sözləri əlavə edilsin.

8. 38-ci maddənin 1-ci hissəsinin “a” yarımbəndinin birinci cümləsinə “(layihəsini)” sözündən sonra “və su təsərrüfatı pasportunu” sözləri, üçüncü cümləsində “təsdiqlənmiş plana” sözlərindən sonra “və razılaşdırılmış su təsərrüfatı pasportuna” sözləri əlavə edilsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri,
30 may 2014-cü il.

Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının yekunlarına həsr olunmuş iclası keçirilmişdir

İyulun 10-da Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

İclasda çıxış edən Prezident İlham Əliyev 2014-cü ilin yanvar-iyun aylarında ölkədə sosial və iqtisadi vəzifələrin uğurla icra edildiyini bildirmişdir: "İlin birinci yarısında ölkəmizin uğurlu inkişafı təmin edilmişdir. Qarşıda duran bütün məsələlər uğurla icra edilmişdir. Bir dənə də olsun icra edilməmiş məsələ yoxdur. Əlbəttə, bu, deməyə əsas verir ki, ilin sonuna qədər də bütün vəzifələr icra ediləcək, ölkəmizin dinamik uğurlu inkişafı davam edəcəkdir. Birinci altı ayda iqtisadi göstəricilərimiz də çox müsbətdir - iqtisadiyyat 2,1 faiz artmışdır. Bəlkə də əvvəlki dövrlərlə müqayisədə bu, o qədər də böyük rəqəm deyildir. Ancaq bu gün dünyada, bölgədə və Avropada yaşanan iqtisadi çətinliklər fonunda hesab edirəm ki, bu, çox gözəl göstəricidir. Ən sevindirici hal ondan ibarətdir ki, mən bunu sevinc hissi ilə qeyd edirəm. Son illər ərzində qeyri-neft sektorumuz uğurla artır və qeyri-neft sektorumuzda inkişaf 7 faiz səviyyəsindədir".

İlin sonuna qədər qarşıda duran bütün məsələlərin öz həllini tapacağını qeyd edən Prezident İlham Əliyev bildirmişdir ki, növbəti 6 ayda nəzərdə tutulmuş bütün infrastruktur layihələrinin icrası başa çatdırılacaqdır: "Son illərdə bu istiqamətdə böyük işlər görülmüşdür, amma hələ ki, görüləsi işlər çoxdur. Xüsusilə nəzərə alsaq ki, ölkə qarşısında maliyyə problemi kimi bir problem durmur. Mən bunu giriş sözümdə də demişəm, bizim maliyyə vəziyyətimiz yaxşıdır, kifayət qədər vəsaitimiz vardır, ona görə, infrastruktur layihələrinin icrası ilə bağlı heç bir yubanma olmamalıdır. Burada əsas şərt keyfiyyət və sürətdir. Əlbəttə ki, bütün aidiyyəti qurumlar keyfiyyətə ciddi diqqət yetirməlidirlər. Elə etməlidirlər ki, xərclənən vəsait lazımi səviyyədə təmin edilsin".

Ölkə başçısı içməli su və kanalizasiya layihələrinin icrasına da toxunmuşdur: "İçməli su və kanalizasiya layihələri bütün ölkə üzrə gedir, o cümlədən Bakıda. Dövlət büdcəsi hesabına böyük investisiyalar qoyulur, həm də kreditlər verilir. Şəhərimizdə artıq bir neçə belə layihə başa çatıb. Mən də açılışlarda iştirak etmişəm. Vətəndaşlarla söhbət əsnasında onların bu məsələyə müsbət yanaşmasını görmüşəm. Uzun illər keyfiyyətsiz sudan əziyyət çəkən vətəndaşlar bu gün artıq 24 saat fasiləsiz, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun olan içməli suya malikdirlər. Elə etməliyik ki, bütün şəhərlərimizə içməli su xətləri çəkək. Eyni zamanda, kəndləri də içməli su ilə təmin edirik. Həm "Azərsu" şirkəti, həm də Ekologiya və Təbii Sərvətlər Nazirliyi çaylar boyu yerləşən kəndlərdə modul tipli təmizləyici qurğular quraşdırır. O ərazilərdə yaşayan təxminən yarım milyona qədər vətəndaş indi təmiz içməli su ilə təmin olunmuşdur".

"Sudan istifadə Qaydaları" təsdiq edilmişdir

"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununa, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununa və "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli 168 nömrəli Fərmanının 1.5-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

"Sudan istifadə Qaydaları" təsdiq edilsin.

Artur RASİ-ZADƏ,
Azərbaycan Respublikasının
Baş naziri
Bakı şəhəri,
17 iyul 2014-cü il

Qərarın tam mətni ilə www.cabmin.gov.az, www.azersu.az və www.azerbaijan-news.az saytlarında tanış ola bilərsiniz.

Səudiyyə İnkişaf Fondu ilə kredit Sazişi imzalanmışdır

İyulun 3-də Nazirlər Kabinetində Azərbaycan Respublikası Hökuməti və Səudiyyə İnkişaf Fondu arasında "Xırdalan şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi" layihəsi üzrə Kredit Sazişi imzalanmışdır.

İmzalanma mərasimində baş nazirin müavini Abid Şərifov Azərbaycanla Səudiyyə İnkişaf Fondu arasında əməkdaşlığın uğurla davam etdiyini bildirmişdir. "Azərbaycan hökuməti müxtəlif sahələri əhatə edən infrastruktur layihələrinin icrasında beynəlxalq maliyyə qurumlarının, o cümlədən Səudiyyə İnkişaf Fondunun kreditlərindən istifadə edir. İndiyə qədər fond ölkəmizdə su, yol, təhsil sahələrini əhatə edən 4 layihəyə güzəştli şərtlərlə maliyyə vəsaiti ayırıb. Bu gün isə Abşeron rayonu Xırdalan şəhərinin sosial-iqtisadi inkişafına töhfə verəcək bir layihənin maliyyələşdirilməsi üzrə saziş imzalanacaqdır".

Müqəddəs Ramazan ayı münasibətilə Azərbaycan xalqını təbrik edən Səudiyyə İnkişaf Fondunun vitse-prezidenti və icraçı direktoru Yusif İbrahim Əl-Bassam Azərbaycan hökuməti ilə əməkdaşlığı yüksək qiymətləndirmişdir: "Bu Azərbaycana dördüncü səfərimdir. Ölkənizdə sürətli inkişafın şahidiyəm və şadam ki, infrastrukturun yaxşılaşdırılmasında Səudiyyə İnkişaf Fondunun da rolu vardır. Azərbaycandan yeni layihələrin maliyyələşdirilməsi ilə bağlı müraciətlər olsa, məmnunluqla onlara kredit ayıracağıq".

Sonra Azərbaycan hökuməti ilə Səudiyyə İnkişaf Fondu arasında "Xırdalan şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi" layihəsi üzrə Kredit Sazişinin imzalanması mərasimi keçirilmişdir. Sənədi Azərbaycan hökuməti adından "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov və Səudiyyə İnkişaf Fondunun vitse-prezidenti və icraçı direktoru Yusif İbrahim Əl-Bassam imzalamışdır.

Sazişə əsasən, Səudiyyə İnkişaf Fondu "Xırdalan şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi" layihəsinə güzəştli şərtlərlə 35 milyon dollar kredit ayıracaq. Ümumi dəyəri 75 milyon dollar olan layihənin qalan hissəsini Azərbaycan hökuməti maliyyələşdirəcək.

Qeyd edək ki, "Xırdalan şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi" layihəsi 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla 190 mindən artıq sakinin dayanıqlı içməli su ilə təmin edilməsinə hesablanmışdır. Layihə çərçivəsində Xırdalan şəhərində ümumi tutumu 60 min kubmetr olan 3 ədəd su anbarı tikiləcək, istehlakçıları mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin etmək məqsədi ilə müxtəlif diametrli polietilen və polad borularla 178,5 km uzunluğunda su şəbəkəsi yaradılacaq, hər bir ünvana ev birləşməsi verilərək smart-kart sayğaclar quraşdırılacaqdır.

Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğunun inşası yekunlaşır

Bakı şəhəri və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı çərçivəsində icra edilən ən böyük layihələrdən biri - Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğusunun inşası yekunlaşmaq üzrədir. Təməli 8 sentyabr 2011-ci ildə Prezident İlham Əliyev tərəfindən qoyulmuş qurğu Bakı şəhəri və Abşeron yarımadasının yaşayış məntəqələrinin fasiləsiz və keyfiyyətli içməli su təminatına öz töhfəsini verəcəkdir.

Layihəyə uyğun olaraq ultrasüzgəc binası, binadaxili texnoloji xətlər, subölüşdürücü kamera, xam su anbarı tikilərək istismara tam hazır vəziyyətə gətirilib. Ceyranbatan gölündən xam su anbarına suyu ötürəcək sugötürücü qurğunun, tunel qazma üsulu ilə tikilən suqəbuledici boruların, hazır su anbarının, nasos stansiyasının, sərfölçən qurğuların tikintisi isə son mərhələdədir. Bu işlərlə paralel ultrasüzgəc binasında membran süzgəclərin quraşdırılmasına hazırlıq görülür. Yuxarıda sadalanan işlərin 3-cü rübdə başa çatdırılması, ardınca isə sınaq işlərinin aparılması nəzərdə tutulur. Təsdiq olunmuş layihəyə əsasən, qurğuda 4800 ədəd son texnologiyaya əsaslanan membran süzgəc quraşdırılacaq ki, onların da ümumi məhsuldarlığı saniyədə 6 kubmetr və ya sutkada 520 min kubmetr təşkil edəcək.

Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğuda aparılan işlərlə yanaşı, emal olunacaq suyun istehlakçılara çatdırlması məqsədilə magistral kəmərlərin və anbarların tikintisi də davam etdirlir. Hazırda Hökməli qəsəbəsi ərazisində 20 min kubmetr tutumu olan 2 anbardan ("+118 Abşeron") birinin inşası tam başa çatdırılmış, digərində isə son tamamlama işləri aparılır. Bununla paralel ultrasüzgəcli qurğudan anbarlara qədər 11,2 km uzunluğunda magistral xəttin inşası da yekunlaşıb. Qeyd edək ki, bu layihənin tərkib hissəsi olan Ceyranbatan-Balaxanı-Ramana-Qala magistral xətti və Qala anbarının inşası 2013-cü ildə, bu anbardan Zirə qəsəbəsinə qədər olan kəmərin inşası isə bu ilin əvvəlində başa çatdırılıb. Magistral kəmər boyu Balaxanı və Zirə anbarlarının tikintisi də son mərhələdədir. Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğu, magistral kəmər, anbar və infrastrukturun digər obyektləri istismara buraxılandan sonra Abşeron yarımadasında 1 milyon nəfərdən artıq əhali fasiləsiz və keyfiyyətli içməli su ilə təmin ediləcəkdir. Layihəyə əsasən qurğuda suyun təmizlənməsi prosesi tam avtomatlaşdırılmış rejimdə həyata keçiriləcək, burada emal olunan su "+ 118 Abşeron" anbarına qaldırılmaqla Abşeron yarımadasının bütün yaşayış məntəqələrinə özüaxımlı rejimdə veriləcək.

Ceyranbatan anbarından suyun qəbulu, ilkin təmizlənməsi və emal edilmiş suyun zərərsizləşdirilməsində yeni texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilir və qurğunun tikintisində Niderland Krallığı, Türkiyə istehsalı olan müasir avadanlıqlardan istifadə edilir.

Qeyd edək ki, hazırda dünya təcrübəsində az bulanıqlı suların təmizlənməsi üçün iqtisadi cəhətdən səmərəli sayılan yeni ultrasüzgəcli qurğulardan istifadə olunur. Bu qurğularda suyun təbii mineral tərkibi saxlanılmaqla, daha yaxşı təmizlənməsi, xoşagəlməz iy və dadların tam aradan qaldırılması təmin edilir. Burada emal olunacaq su Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verəcəkdir.

Talış-Sabirabad-Saatlı magistral su kəmərinin tikintisi uğurla davam etdirilir

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti regionlarda istehlakçıların içməli su təchizatının yaxşılaşdırılması üçün yeni layihələrin icrasını davam etdirir. İçməli su çatışmazlığının müşahidə olunduğu Kürətrafı rayonlarda su probleminin həll edilməsi məqsədilə Talış-Sabirabad-Saatlı magistral su kəmərinin tikintisi uğurla həyata keçirilir. Magistral kəmərin tikintisi Azərbaycan hökuməti ilə Dünya Bankının birgə maliyyələşdirdiyi "Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri Layihəsi" çərçivəsində həyata keçirilir.

Oğuz-Qəbələ-Bakı su kəmərinin istismara verilməsi Bakı şəhəri və Abşeron yarımadasının su təminatını kifayət qədər yaxşılaşdırmışdır. Paytaxtın su təchizatında yaranmış stabillik Kür sutəmizləyici qurğular kompleksindən Abşeron yarımadasına nəql edilən suyun bir hissəsinin Kürətrafı bölgələrə yönəldilməsinə imkan yaratmışdır. Bu məqsədlə 2012-2013-cü illərdə Şirvan-Muğan qrup su kəməri inşa edilmiş, bu mənbədən Şirvan, Hacıqabul və Biləsuvar şəhərlərinə içməli suyun verilməsi təmin edilmişdir. Kür sutəmizləyici qurğular kompleksinin emal potensialı nəzərə alınaraq bu mənbədən Saatlı və Sabirabad şəhərlərinə, eləcə də ətraf kəndlərə içməli suyun verilməsi məqsədəuyğun hesab edilmişdir.

Mənbəyini Hacıqabul rayonunun Talış kəndi yaxınlığında yerləşən Kür sutəmizləyici qurğular kompleksindən götürən Talış-Sabirabad-Saatlı su kəməri 61,5 km layihələndirilmişdir. Kəmərin 25,7 km hissəsi 810 mm diametrli polad və polietilen, qalan hissəsi isə 500 mm, 630 mm, 710 mm, 800 mm diametrli polietilen borularla çəkilir. İndiyə qədər kəmərin 45 km-lik hissəsində işlər başa çatdırılmışdır.

İşlərin keyfiyyətlə yerinə yetirilməsi üçün texniki tələblərə uyğun olaraq boruların qaynaq edilmiş hissəsi ultrasəs aparatı vasitəsi ilə yoxlanılır və hər bir qaynaq tikişi üçün fərdi rəy verilir.

Nəql olunacaq suyun keyfiyyətinin yüksək səviyyədə saxlamaq və korroziyanın qarşısını almaq məqsədi ilə polad borular daxildən xüsusi izolyasiya ilə örtüklənir. Eyni zamanda kəmərin marşrutu boyunca yerləşən kəndləri su ilə təmin etmək üçün çıxışlar verilir.

Talış-Sabirabad-Saatlı su kəmərinin inşasının ilin sonuna qədər başa çatdırılması nəzərdə tutulur. Magistral kəmərin istismara verilməsilə Sabirabad və Saatlı şəhərlərinin, həmçinin marşrut boyunca yerləşən 44 kəndin 143 min sakini keyfiyyətli içməli su ilə təmin olunacaqdır.

Qeyd edək ki, "Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri Layihəsi" çərçivəsində Sabirabad və Saatlı şəhərlərinin su təchizatı və kanalizasiya infrastrukturları da yenidən qurulur.

BEYLƏQAN ŞƏHƏRİNDƏ İÇMƏLİ SU VƏ KANALİZASİYA ŞƏBƏKƏLƏRİNİN TİKİNTİSİ YEKUNLAŞIR

Azərbaycan hökuməti və Asiya İnkişaf Bankının birgə maliyyələşdirdiyi "Su təchizatı və kanalizasiya investisiya proqramı" çərçivəsində Beyləqan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üzrə işlər uğurla davam etdirilir.

"Beyləqan şəhərinin su təchizatı və kanalizasiya sistemləri kompleksinin yenidən qurulması layihəsi" çərçivəsində rayon mərkəzinin su və kanalizasiya şəbəkəsi tamamilə yenidən qurulacaq, şəhərin yaxınlığındakı Aşıqlı, Şəfəq və Əlinəzərli kəndlərinə içməli su veriləcəkdir. Layihə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla Beyləqan şəhərində 20 mindən artıq insanın su təchizatının əsaslı şəkildə yaxşılaşdırılmasını, eyni zamanda rayon mərkəzində yeni kanalizasiya sisteminin yaradılmasını nəzərdə tutur.

İcrasına 2012-ci ilin oktyabrında başlanılan layihə üzrə işlərin böyük hissəsi yerinə yetirilmişdir. Belə ki, Beyləqan şəhərini içməli su ilə təmin etmək üçün Əlinəzərli kəndi yaxınlığında 5 ədəd subartezian quyusu qazılmış və buradan şəhərə qədər 8,6 km uzunluğunda magistral su xətti çəkilmişdir. Quyu ərazisində hər birinin tutumu 500 kubmetr olan 2 ədəd su anbarının, xlorator binası və nasos stansiyasının tikintisi davam etdirilir.

Əhalini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədi ilə 91 km planlaşdırılan şəhərdaxili su şəbəkəsinin 75 km-lik hissəsində işlər tamamlanmış, 4200 ev birləşməsi verilmiş və işlər davam etdirilir. Növbəti mərhələdə bütün abunəçilər ön ödənişli smart-kart sayğaclarla təmin olunacaqdır. Layihə çərçivəsində şəhərin müxtəlif küçə və məhəllələrində 285 ədəd yanğın hidrantı da quraşdırılmışdır.

Şəhərdə yaranan tullantı sularının optimal idarəedilməsi məqsədilə tikintisi nəzərdə tutulan 89 km uzunluğunda kanalizasiya xəttinin 72 km-lik hissəsində işlər başa çatdırılmış, 2 minə yaxın baxış quyusu tikilmişdir. Su və kanalizasiya şəbəkələrinin tikintisi cari ilin sonunda başa çatdırılacaqdır.

Layihənin növbəti mərhələsində tutumu 1000 kubmetr olan su anbarı və sutkalıq məhsuldarlığı 10 min kubmetr olan çirkab sutəmizləyici qurğu inşa ediləcəkdir.

Qeyd edək ki, Beyləqan şəhərində su və kanalizasiya sistemləri 1980-ci illərdə yaradılmışdır. Hazırda şəhər sakinlərinin təqribən 30 faizi mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunur. Əhalinin qalan hissəsi tələbatını fərdi qaydada ödəyir. Yeni layihənin icrası tam başa çatdıqdan sonra şəhər və ətraf 3 kəndin əhalisi, həmçinin bu ərazidə məskunlaşmış məcburi köçkünlər keyfiyyətli və dayanıqlı içməli su ilə təmin olunacaqdır.

Tunel tipli kanalizasiya kollektorları tullantı sularının optimal idarəolunmasını təmin edəcək

Azərsu" Acıq Səhmdar Cəmiyyəti Bakı şəhəri və Abşeron yarımadasının kanalizasiya infrastrukturunun yaxşılaşdırılması və Xəzər dənizinin ekoloji vəziyyətinin qorunması məqsədilə genişmiqyaslı layihələr həyata keçirir. Yarımadanın bütün yaşayış məntəqələrində kanalizasiya şəbəkəsinin yaradılması, tullantı sularının optimal idarə edilməsi və onların su hövzələrinə axıdılmasının qarşısını almaqla çirkab suların özüaxımlı rejimdə təmizləyici qurğulara yönləndirilməsi layihələrdə əsas hədəf kimi müəyyənləşdirilmişdir. Abşeron yarımadasında relyefin mürəkkəbliyi, ərazilərin sıx məskunlaşması kimi amillər nəzərə alınaraq kanalizasiya infrastrukturunun yenidən qurulması və inkişafı layihələrində tunel tipli kanalizasiya kollektorlarının tikintisinə zərurət yaranmışdır.

2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla Abşeron yarımadasının qəsəbə və kəndlərində su təchizatı, kanalizasiya sistemləri və yağış sularının idarə olunması üçün hazırlanmış Master Planda tunel tipli kanalizasiya kollektorlarının tikintisi də öz əksini tapmışdır. Master Plana əsasən, yarımada ərazisində formalaşan tullantı sularının nəql olunması məqsədilə 150 km uzunluğunda tunellər və mikrotunellər layihələndirilmişdir. Dərnəgül-Bakıxanov-Günəşli (1254 min nəfərə xidmət edəcək), Bayıl-Bibiheybət-Lökbatan (382 min nəfərə xidmət edəcək), Xocasən-Biləcəri-Xırdalan (626 min nəfərə xidmət edəcək) və Zabrat-Kürdəxanı-Pirşağı (219 min nəfərə xidmət edəcək) tunellərinin inşasına başlanılmışdır.

İndiyə qədər Dərnəgül-Bakıxanov-Günəşli istiqamətində tunelin 4 nöqtədə 3400 metrlik hissəsi inşa olunmuşdur. Xocasən-Binəqədi-Xırdalan istiqamətində isə 3 nöqtədə 1500 metr tunel qazılmışdır. Zabrat-Kürdəxanı-Pirşağı istiqamətində 2 nöqtədə indiyədək tikilmiş tunelin uzunluğu 1600 metr təşkil edir. Eyni zamanda, Bayıl-Bibiheybət-Lökbatan istiqamətində 2 nöqtədə 400 metrdən artıq tunel tikilmiş və işlərin sürətləndirilməsi üçün yeni quyu şaxtalarının qazılması davam etdirilir.

Kollektorların tikintisi yeni texnologiyaya əsaslanan TBM tunel qazma qurğuları vasitəsi ilə həyata keçirilir. Qazıntı işləri ilə eyni vaxtda yüksək keyfiyyətli betondan hazırlanmış konstruksiyalarla (plitələrlə) tunelin tikintisi həyata keçirilir. Ənənəvi qazma üsulları ilə müqayisədə tunel qazma texnologiyası zamanı marşrut boyunca yerləşən yerüstü bina və tikililərin, kommunikasiya xətlərinin köçürülməsinə, böyük inşaat meydançasının yaradılmasına ehtiyac qalmır.

Tunel tipli kanalizasiya kollektorları əksər hallarda tullantı sularının özüaxımlı rejimdə nəqlinə imkan yaratdığından kanalizasiya nasos stansiyalarından istifadə olunmur. Belə layihələr tullantı və yağış sularının idarəedilməsini xeyli asanlaşdırır. Belə ki, hazırda Bakı şəhərinin şimal hissəsi, Xırdalan şəhəri və ətraf qəsəbələrdə yaranan tullantı sularının böyük bir hissəsi Hövsan Aerasiya Stansiyasına ötürülür. Bu zaman tullantı suları bir neçə mərhələdə qaldırıcı nasoslar vasitəsi ilə ötürülür ki, bu da xərcləri artırmaqla istismar zamanı əlavə çətinliklər yaradır. Tikintisi davam edən Xocasən-Binəqədi-Xırdalan, Bayıl-Bibiheybət-Lökbatan kollektorları və Lökbatan təmizləyici qurğuları istismara verilməndən sonra Səbail, Yasamal, Qaradağ, Binəqədi və Abşeron rayonlarında yaranan tullantı sularının bir hissəsi burada təmizlənərək kənarlaşdırılacaq.

Master Planda tullantı suların müasir standartlara uyğun təmizlənərək kənarlaşdırılması məqsədi ilə məhsuldarlığı sutkada 1 milyon 400 min kubmetr olan 11 ədəd təmizləyici qurğunun layihəsi də hazırlanıb. Lökbatan təmizləyici qurğusunun inşasına başlanılmış, Pirşağı təmizləyici qurğusunun tikintisinə isə hazırlıq görülür. Master Planda nəzərdə tutulan bu layihələrin reallaşması ilə Xəzər dənizinə təmizlənmədən axıdılan çirkab suların qarşısı tam alınacaqdır.

Xızı şəhərində su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin ikinci mərhələsinə başlanılacaqdır

Azərbaycan hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (YBƏA) birgə maliyyələşdirdiyi "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi" çərçivəsində "Xızı şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin birinci mərhələsi üzrə işlərin böyük hissəsi başa çatmışdır.

İstehlakçıların daimi içməli su ilə təmin etmək məqsədilə Qars su mənbəyində sutkalıq məhsuldarlığı 430 kubmetr, Yeddibulaqda 40 kubmetr olan sugötürücü qurğunun və polad borularla ümumi uzunluğu 17,3 km olan magistral su kəmərlərinin tikintisi yekunlaşmışdır. Dahardibi su mənbəyi üzrə işlərin başlanmasına hazırlıq görülür.

"Xızı şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin ikinci mərhələsi çərçivəsində tikinti-quraşdırma işlərinə 2014-cü ilin noyabr ayında başlanılacaqdır. İkinci mərhələdə Şəfa su mənbəyində sutkalıq məhsuldarlığı 240 kubmetr olan sugötürücü qurğu tikiləcək, Xızı şəhərində hər birinin həcmi 1000 kubmetr olan 2 ədəd, Altıağac qəsəbəsində isə hər birinin həcmi 400 kubmetr olan 4 ədəd su anbarı inşa ediləcəkdir. Layihə çərçivəsində istehlakçıların mərkəzləşdirilmiş qaydada içməli su və kanalizasiya xidmətlərindən yararlanması üçün 42,1 km paylayıcı su, 30,4 km kanalizasiya xətti çəkiləcək, hər bir ünvana birləşmə verilərək bütün abunəçilər smart-kart sayğaclarla təmin olunacaqdır. Bundan başqa layihə çərçivəsində inzibati bina, laboratoriya və digər istehsalat binalarının tikintisi, o cümlədən maşın-mexanizmlərin alınması planlaşdırılır.

Hazırda layihənin icrası ilə əlaqədar podratçı şirkətin seçilməsi üzrə tender proseduruna hazırlıq görülür. Yaxın vaxtlarda iddiaçı şirkətlərə tenderdə iştirakla bağlı dəvət məktubu və tenderin şərtlər toplusu göndəriləcəkdir. Təkliflər qiymətləndirildikdən sonra Yekun Protokol və qalib şirkətlə podrat müqaviləsi imzalanacaqdır.

Layihənin üçüncü mərhələsində yaranacaq tullantı sularının təmizlənməsi məqsədilə Xızı şəhərində sutkalıq məhsuldarlığı 1500 kubmetr, Altıağac qəsəbəsində isə 350 kubmetr olan çirkab sutəmizləyici qurğu tikiləcəkdir.

Qeyd edək ki, "Xızı şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi Xızı şəhərində 3294, Altıağac qəsəbəsində 1423, eləcə də, Baxışlı, Tıxlı, Xələç kəndlərində 1562 nəfər olmaqla, umumilikdə, 6279 nəfərin su təchizatı və kanalizasiya xidmətlərinin əsaslı şəkildə yaxşılaşmasına hesablanıb.

Daşkəsən şəhərinin su təchizatı və kanalizasiya sistemləri yenidən qurulacaqdır

Daşkəsən şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi üzrə tikinti-quraşdırma işlərinə 2014-cü ilin oktyabr ayında başlanılması nəzərdə tutulur. Azərbaycan hökumətinin İslam İnkişaf Bankı ilə birgə maliyyələşdirdiyi "Azərbaycanın 6 rayonunda Milli Su Təchizatı və Kanalizasiya Layihəsinə Dəstək" proqramı çərçivəsində reallaşdırılacaq layihənin icrası ilə əlaqədar 2014-cü ilin avqust ayında podratçı şirkətin seçilməsi üzrə tender keçiriləcəkdir.

Daşkəsən şəhərini və ətraf kəndləri keyfiyyətli və dayanıqlı içməli su ilə təmin etmək üçün Qarainək və Gülbulaq su mənbələri seçilmişdir. Su mənbələrindən Daşkəsən şəhərinə qədər 20 km uzunluğunda magistral su kəməri çəkiləcək, şəhərin relyefi nəzərə alınmaqla müxtəlif ərazilərdə ümumi tutumu 4500 kubmetr olan 4 su anbarı tikiləcəkdir. Layihə çərçivəsində 18,3 km uzunluğunda paylayıcı su şəbəkəsi yaradılacaq, 2500-ə yaxın ünvana birləşmə veriləcək və hər bir abunəçi sayğacla təmin olunacaqdır. Layihə Daşkəsən şəhəri ilə yanaşı rayonun Alunitdağ və Mədənçilər kəndlərinin, ümumilikdə 17 minə yaxın sakinin içməli su təchizatının yaxşlaşdırılmasına hesablanmışdır.

Layihəyə uyğun olaraq Daşkəsən şəhərində kanalizasiya şəbəkəsi də yaradılacaqdır. Şəhərdə yaranan tullantı sularının optimal idarə edilməsi üçün 21 km uzunluğunda kanalizasiya xətti, 4205 kanalizasiya quyusu tikiləcək, eyni zamanda yanğın hidrantları quraşdırılacaqdır.

Qeyd edək ki, "Azərbaycanın 6 rayonunda Milli Su Təchizatı və Kanalizasiya Layihəsinə Dəstək" proqramı çərçivəsində Gədəbəy, Daşkəsən, Samux, Tərtər, Qazax və Astara şəhərlərinin su təchizatı və kanalizasiya sistemləri yenidən qurulacaqdır. Artıq Gədəbəy və Astara şəhərləri üzrə tender prosedurlarına başlanılmışdır.

"Azərsu" ASC-də İSO sertifikatının alınması ilə bağlı təlim keçirilmişdir

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti ilə "Keyfiyyət Assosiasiyası" İctimai Birliyi arasında İSO 9001:2008 beynəlxalq standartına uyğun keyfiyyəti idarəetmə sisteminin qurulması və tətbiq olunması barədə imzalanmış müqavilə çərçivəsində təlim təşkil olunmuşdur.

Təlimdə Səhmdar Cəmiyyətin aidiyyəti struktur bölmələrinin 12 işçisinə ISO 9001:2008 keyfiyyəti idarəetmə sisteminin əsas prinsipləri, proseslərin idarə edilməsi və İSO standartı ilə bağlı məlumatlar verilmişdir.

İyulun 16-da təlimdə iştirak etmiş və müvəffəqiyyət qazanmış işçilərə sertifikatların verilməsilə bağlı tədbir keçirilmişdir. Tədbirdə çıxış edən "Azərsu" ASC sədrinin birinci müavini Teyyub Cabbarov əhalinin keyfiyyətli və fasiləsiz içməli su təminatı məqsədi ilə su təchizatı və kanalizasiya sistemlərinin beynəlxalq standartlara uyğun qurulması sahəsində həyata keçirilən geniş miqyaslı işlər haqqında məlumat verərək, Cəmiyyətdə İSO beynəlxalq standartlarının tətbiqinə başlanılmasını mühüm hadisə kimi qiymətləndirmişdir. T.Cabbarov həyata keçirilən layihələrin icrasında innovativ yeniliklərin və müasir idarəetmə prinsiplərinin tətbiq edilməsinin vacibliyini qeyd edərək, Səhmdar Cəmiyyətin fəaliyyətinin bütün sahələrində, xüsusilə də insan resurslarının idarə edilməsində İSO standartlarının tətbiqinin görülən işlərin keyfiyyətinə müsbət təsir göstərəcəyini söyləmişdir.

Daha sonra təlimdə müvəffəqiyyət qazanmış işçilərə sertifikatlar təqdim olunmuşdur.

"Su problemləri, elm və texnologiyalar" jurnalı təsis edilmişdir

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələrində elmi nailiyyətlərə, əhatəli tədqiqatlara əsaslanaraq, yeni texnologiyaların tətbiqinə xüsusi diqqət yetirir. Cəmiyyətin alim və mütəxəssisləri suyun emalında innovativ texnologiyaların tətbiqi, su təchizatı, tullantı və yağış suları şəbəkələrinin səmərəli idarəetmə metodları, GİS texnologiyaları, tullantı suların təmizlənməsi və müxtəlif məqsədlər üçün təkrar istifadəsi, həyata keçirilən layihələr çərçivəsində ətraf mühitin qorunması problemləri üzərində işləyir. İnkişaf etmiş ölkələrdə su təsərrüfatı sektorunda tətbiq olunan innovativ texnologiyaların öyrənilməsi və Azərbaycanda tətbiqinə xüsusi diqqət yetirilir.

Su sektorunun müasir problemlərini və konseptual məsələlərini öyrənmək məqsədilə "Azərsu" ASC tərəfindən "Su problemləri, elm və texnologiyalar" adlı elmi jurnal təsis edilmişdir.

"Azərsu" ASC-nin idarə və müəssisələrində Azərbaycanda su sektorunda fəaliyyət göstərən digər qurumlarda, ali təhsil müəssisələrində, elmi mərkəzlərdə çalışan, eləcə də, xarici ölkələrdən olan alim və mütəxəssislər jurnal ilə əməkdaşlıq edə bilərlər.

Jurnalda nəşr ediləcək məqalələr aşağıdakı mövzuları əhatə etməlidir:

- Su ehtiyatları və onların inteqrasiyalı idarə edilməsi problemləri;
- İçməli su emalı və tullantı suların təmizlənməsində innovativ texnologiyalar;
- Su təchizatı, tullantı və yağış suları sistemlərinin idarə olunması;
- Su sektorunda ekoloji-iqtisadi əsaslandırmalar;
- Tullantı suların təmizlənməsi və təkrar istifadəsi;
- Sudan istifadənin ekoloji problemləri;
- Sudan səmərəli istifadə.

Məqalələrin tərtibat qaydası və digər məsələlərlə bağlı ətraflı məlumatı <http://sukanal.az/index.php?option=com_content&view=article&id=190:qsu-problemlri-elm-v-tecnologiyalarq-elmi-jurnal&catid=59:lahiyeler> linkindən əldə etmək olar.

Su anbarlarının mühəndis və rəhbər işçiləri təlimlərə cəlb olunmuşdur

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti mütəxəssislərin peşəkarlıq səviyyəsinin artırılması, iş təcrübəsinin yüksəldilməsi istiqamətində tədbirləri davam etdirir.

İyulun 15 və 16-da "Azərsu" ASC-də növbəti - "Bakı şəhəri və ətraf qəsəbələri içməli su ilə təmin edən mərkəzi anbarların hidroloji parametrləri və suyun keyfiyyətinə təsiri" mövzusunda təlimlər keçirilmişdir. Təlimlərə Abşeron yarımadası ərazisində fəaliyyət göstərən mərkəzi su anbarlarının 50-dən çox mühəndis və rəhbər işçisi cəlb olunmuşdur.

Təlimlərdə əsasən su anbarlarının əhalinin su təchizatındakı rolu, fəaliyyətdə olan anbarların qidalanma mənbələri, texniki vəziyyəti, layihə parametrlərinin gözlənilməsi, sanitar-gigiyenik və mikrobioloji keyfiyyət tələbləri, hidroloji rejimi və ətraf mühit elementlərinin təsir imkanları və digər məsələlər diqqət mərkəzində olmuşdur. Təlim iştirakçılarına mövcud problemlərin aradan qaldırılması yolları və idarə olunma mexanizmləri, iş vərdişlərinin əsas elementləri haqqında ətraflı məlumatlar verilmişdir. Təlim prosesində mərkəzi su anbarlarında problemlərin həlli ilə əlaqədar bütün məsələlər qarşılıqlı müzakirə əsasında yekunlaşmışdır.

Tədbir iştirakçıları yeni infrastrukturun idarə olunması üçün peşəkar kadrların hazırlanması baxımından bu tipli təlimlərin keçirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini, mərkəzi anbarlarda çalışan mühəndislərin işin təşkili mexanizmi sahəsində bilik və bacarıqlarının artırılmasına müsbət təsir göstərəcəyni bildirmişlər.

Tələbələr "Yay məktəbi"nə cəlb edilirlər

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti kadr hazırlığı və gənc mütəxəssislərin peşəkarlıq səviyyəsinin artırılması, bilik və bacarıqların, iş təcrübəsinin yüksəldilməsinə xüsusi diqqət yetirir. "Azərsu" ASC-nin ali təhsil müəssisələri ilə əməkdaşlığı çərçivəsində yay aylarında istehsalat təcrübəsi və "Yay məktəbi" proqramı təşkil olunur.

Cari ilin iyul ayından başlamış "Yay məktəbi" və istehsalat təcrübəsində Bakı Dövlət Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, eləcə də Azərbaycan Texniki Universitetinin 141 tələbəsinin iştirakı nəzərdə tutulmuşdur.

"Azərsu" ASC ilə Bakı Dövlət Universiteti arasında "Təhsil, elm və təlimtədris sahəsində əməkdaşlığa dair" Memoranduma uyğun olaraq universitetin "ekologiya" və "hidrogeologiya mühəndisliyi" ixtisasları üzrə 17 tələbəsi istehsalat təcrübəsinə cəlb edilmiş, eyni zamanda "Yay məktəbi" proqramında iştirak etmək imkanı qazanmışdır.

"Azərsu" ASC ilə Azərbaycan Memarlıq və İnşaat Universiteti arasında "Təhsil, elm, ixtisasartırma və əmək məşğulluğu sahəsində əməkdaşlığa dair" Memoranduma əsasən, universitetin 63 tələbəsi istehsalat və texnoloji təcrübəyə cəlb olunmuşdurlar. İstehsalat təcrübəsinin davamı olaraq həmin tələbələrdən 18 nəfəri "Yay məktəbi" proqramında iştirak edir.

Azərbaycan Texniki Universitetinin 58 tələbəsi də tədris və istehsalat təcrübəsi keçmək imkanı qazanmışdır.

İstehsalat təcrübəsi və "Yay məktəbi "Azərsu" ASC Aparatı üzrə müvafiq şöbələrdə, yerli sukanal idarələrində və müəssisələrdə keçirilir. "Azərsu" ASC-nin idarə və müəssisələri, hidrotexniki qurğuları ilə tanışlıq tələbələrə bilik və təcrübələrini artırmağa şərait yaradır, qazanılan təcrübə gələcək əmək fəaliyyətində böyük rol oynayacaqdır.

Su haqqında bunları bilirsinizmi?

Hər gün dünyada 7-8 milyard kubmetr su istehlak olunur. İnsan orqanizminin hüceyrələri hüceyrəarası mayedə balığın suda üzdüyü kimi üzür. Bəs su haqqında nələri bilirik və bilməliyik?

Su nəfəs almaq üçün oksigeni rütubətləndirir və canlıların bədəninin istiliyini idarə edir.

Susuzluq baş ağrılarına və baş gicəllənməsinə gətirib çıxarır.

Su bədəndəki maddələrin orqanlar vasitəsilə sorulmasını təmin edir, qidanı enerjiyə çevirməyə kömək edir.

Çirkli su istehlakı səbəbindən hər il dünyada 2,2 milyon insan ölür, hər 8 saniyədə bir körpə uşaq dünyasını dəyişir.

Son bir əsrdə dünya əhalisinin 2 dəfəyə yaxın artdığı halda, suya olan tələbat 6 dəfə çoxalıb.

İnsan yuxudan oyanan kimi 2 fincan, sonra isə hər saatda 1 fincan su içsə mayeyə olan gündəlik normanı təmin etmiş olar.

Çəki itirmək üçün mütləq bədəndəki suyu azaltmaq vacibdir. Orqanizmə lazımi qədər su daxil olmadıqda "mühafizə" mexanizmi işə düşür, bədəndəki mayedən qənaətlə istifadə edilir və suyun orqanizmdən kənarlaşmasının qarşısı alınır.

Əgər hər gün təxminən 1 litr qazlı su içilərsə, insanın qarın boşluğundakı əzələlərdə, habelə qaraciyərdə piyin miqdarı normadan dəfələrlə artıq olar.

Danimarkanın Orhus Universitetinin professoru Byorn Riçelsenin başçılıq etdiyi alimlər qrupunun araşdırmaları zamanı qazlı suların orqanizmdə şəkərli diabet və ürək-damar xəstəlikləri riskini dəfələrlə artırdığı məlum olub.

İnsan orqanizmində su ilə ən zəngin toxuma gözün şəffaf şüşəyəbənzər cismidir - 99 faiz, ən az su isə dişin emallı təbəqəsindədir - cəmi 0,2 faiz.

Bədəndəki suyun yarısı əzələlərdə toplanıb və əzələlərin 75 faizi sudan ibarətdir..

Süd, tər və mədə şirəsinin 99 faizi sudan ibarətdir.

Qanın 92, beynin 75, sümüyün isə 22 faizini su təşkil edir.